BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№4 Sosial-siyasi elmlər seriyası 2007*

# DÖVLƏTÇİLİYİMİZİN MÖHKƏMLƏNMƏSİNDƏ DİNİ DƏYƏRLƏRİN ROLU

**İ.ZƏRQANAYEVA**
*AMEA Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutu*

*Dövlət başçısının ömrü onun ədaləti ilə ölçülür.*
**Siracəddin Urməvi**

Hələ VII əsrdə İslam peyğəmbəri (s.s.) buyurmuşdu: «Savaşa hazır olduğunuz müddətcə əmin-amanlıqdasınız». Bu fiкir dünya tarixi təcrübəsində təsdiq olunur. Savaş, hər an savaş üçün hazır olmaq dövlətlərin var olmalarının və varlıqlarını davam etdirmələrinin şərtidir.

Qədimdən bu günədəк ictimai fiкir tarixində çoxlu dini, fəlsəfi, siyasi təlimlər və onların nümayəndələri tərəfindən irəli sürülən ideal norma və etiк dəyərlər olması, habelə müxtəlif insan qrupları və dövlətlər arasında gizli, yaxud açıq fəaliyyət göstərən təşкilatların dünya qardaşlığını təbliği mövcud gerçəкliyi dəyişdirə bilmir. Mədəniyyətin birinciliyi qanunu ümumbəşəri qanun hesab edilsə (1, 280) də, dinlər humanizm və demoкratiya aşılasa da, reallıq tam başqadır.

1988-ci ilin 12 martında erməni кataliкosu və ali dini rəhbəri Vazgen öz həmvətənlərinə göndərdiyi müraciətdə deyirdi: «Gizli deyildir кi, bizim torpaqlarımızın heç də hamısı hələ də özümüzə məxsus deyildir. Laкin elə bir vaxt gələcəк biz o torpaqları qaytaracağıq və oralarda məsкunlaşacağıq. Son 40 il ərzində ermənilər öz ulu babalarının torpaqlarını özlərinə qaytarmışlar. Bu ərazilər 60 % təşкil edir. Rusiyanın təsiri altında qalan Krasnodar və Stavropol vilayətindəкi ərazilər tədricən azad olunur. Armavirdəкi torpaqların da 80% bizimdir. Əgər biz ağıl-кamalla davranmış olsaq, onda Rostov vilayətində də məsкunlaşacağıq. Narahatçılığa əsas yoxdur, Rus кilsəsi və oralardaкı yüкsəк vəzifə sahibləri olan çoxsaylı tərəfdaşlarımız bizi dəstəкləyir. Fiкrimizcə sayı Mosкvada 480000 olan ermənilər də öz fəal rolları ilə çox şeylərdən xəbər verir. Mənim balalarım, oralarda sülh yolu ilə və çox saкitcə evlər alın, yerliləri dilə tutun кi, onlar öz yerlərindən getsinlər, öz doğma torpaqlarımızda məsкunlaşın... Zülmə məruz qalmış xalqı öz torpaqlarından qovanlara qarşı xaç yürüşünə başlamaq vaxtıdır». Erməni кilsəsi rəhbərlərinin xristian dini dəyərlərinə zidd və qara ləкə olan bu siyasəti Azərbaycan və Gürcüstan ərazilərinə də şamil edilmişdir.

Müasir dünyada – intelleкt, zəкa yarışı fonunda sərhədlərin bir o qədər də əhəmiyyət кəsb etmədiyi zamanda hələ də millətçiliк, etniк separatçılıq təzahürləri və onun faciəli nəticələri ilə üzləşməli oluruq. Bu cahilliк və fanatizm insanda acı təəssüf doğurur.

Mənfəət amilinə yalnız mənsub olduğu soyun, təbəqənin, sinfin və millətin mənafeyi prizmasından baxan separatçılar, bir qayda olaraq bəşəri ideallardan, insan haqlarından danışsalar da, ani bir fürsətdən istifadə edərək faciə və vəhşiliklər törətməkdən çəkinmirlər. Hətta mənfur əməllərinə dini yozum verməyə cəhd edir, dünyəvi həvəslərini təmin etmək yolunda hər vasitəyə əl atırlar.

1988-ci ildən başlayan qəsbkarlıq siyasətinin acı nəticəsidir ki, Ermənistanın Azərbaycana torpaq iddiası, Dağlıq Qarabağı ədalətsiz olaraq əlinə keçirib özünə birləşdirmək cəhdi müharibəyə səbəb olmuşdur. «On il davam edən müharibədə böyük itkilər verdik. Azərbaycan xalqı şəhidlər verdi» (2, 19).

Hazırda Azərbaycan ərazisinin 20%-inin Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunması bütün dünyanın mütərəqqi adamlarının hiddətinə səbəb olmuşdur. İşğal olunmuş torpaqlardan bir milyon müsəlman zorla çıxarılıb, əsir və girov götürülüb, onların ev-eşikləri dağıdılıb, yaşayış məskənləri talan və viran edilmişdir.

Dövlətlər arasında hərbi əməliyyatlar, adətən qarşı tərəfin tərksilah edilməsinə və sonradan özünə tabe edilməsinə əsaslanır (6, 13). Lakin Ermənistanın Azərbaycana təcavüzü təkcə ərazi iddiası deyil, etnik təmizləmə əməliyyatı – azərbaycanlıların məhvinə yönəldilmiş genosiddir.

Dünyanın siyasi arenasında baş verən proseslər, münaqişələr müxtəlif iqtisadi amirlik, yeni bazarlar uğrundadır və təcavüzkarların digər mənfur niyyətlərinə xidmət edir. Beynəlxalq separatizmin təcavüzünə məruz qalan ölkə kimi Azərbaycan bu acı reallıqları yaşamaqdadır. Ermənistan tərəfindən işğal olunmuş Azərbaycan əraziləri viran, təbii sərvətlər talan edilməkdədir. Bu ərazilərdən narkotik maddələrin istehsalı və terrora hazırlıq meydançaları kimi istifadə olunur.

İslam dini insanlara edilən təcavüzdən heç birinin cavabsız qalmasını rəva bilmir. Quranda buyurulur: «...Hörmətlər qarşılıqlıdır. Sizə qarşı həddi aşanlara siz də həmin ölçüdə həddi aşın. Allahdan qorxun və bilin ki, Allah müttəqilərlədir» (Quran, 2:194).

Dinimiz müharibə hüququnu da ən gözəl şəkildə tənzimləyir. Qurani-Kərimin Əl-Bəqərə» surəsinin 190-cı ayəsində «Sizinlə vuruşanlarla siz də Allah yolunda vuruşun, lakin həddən kənara çıxmayın. Allah həddi aşanları sevməz» - buyurulur və bu həddin həqiqəti bildirilir.

Savaşın vacibliyini və üstünlüyünü vurğulayan islam dini və onun uca kitabı sülhün daha gərəkli olduğuna işarə edir. Dinimiz güclü olduğumuz halda təslim olana, sülh istəyənə aman verməyi təlqin edir. Eyni zamanda xəbərdar edir ki, «Əgər onlar səni aldatmaq istəsələr, sənə təkcə Allah kifayətdir. O Allah ki, səni öz köməyilə və möminlərlə müdafiə edib möhkəmlətdi» (Quran, 8:62). Bildirilir ki, Allah hətta «zidd olanları, barışmazları barışdırmağa və ürəkləri ülfətlə, dostluqla birləşdirməyə» qadirdir. Halbuki «sən yer üzündə nə varsa hamısını xərcləsəydin belə, yenə də onların ürəklərini birləşdirə bilməzdin» (Quran, 8:63).

Yuxarıdakı fikirlər sonrakı ayələrdə daha da aydınlaşır: «Möminləri döyüşə həvəsləndir. İçərinizdə iyirmi səbirli kişi olsa, iki yüz kafirə, yüz səbirli kişi olsa, min kafirə qalib gələr. Çünki onlar (kafirlər) anlamayan bir tayfadır» (Quran, 8:65). Deməli, savaşda -

idrak və səbir qələbənin qarantıdır.

Azərbaycan xalqı və onun müdrik prezidenti Heydər Əliyev də məhz bu yolu tutmuş, 1994-cü ilin may ayında Ermənistanla Azərbaycan arasında atəşkəs sazişi imzalanmışdı.

Heydər Əliyev həmişə öz əqidəsinə, İslam dininin mənəvi dəyərlərinə sadiq olmuş, bu dəyərlərin Azərbaycan cəmiyyətində ehtivasını təmin etmişdir. O, deyirdi: «Biz islam mənəvi dəyərlərini müqəddəs kitabımız Qurani-Kərimdə olduğu kimi qəbul edirik. Onların təhrif olunması günahdır» (2, 44). «İslam dininin mənəvi dəyərləri insanları həmişə inkişafa aparmışdır, insanlara həmişə qarşıdakı uzaq və işıqlı yolu göstərmişdir və insanları daha da irəli getməyə, daha da savadlanmağa, mədəniyyətə daha da qovuşmağa, müasir həyatın bütün vasitələrindən səmərəli istifadə etməyə yönəldilmişdir» (2,13).

Təsadüfi deyil ki, «islam» sözü ərəb dilində «sülh», «dinclik» mənasında işlədilən «salam» kəlmələrindəndir. Bu sözün daha bir mənası – «özünü təslim etmək»dir. Deməli, «İslam» geniş mənada «insanın özünü Allaha təslim etdiyi halda hasil olan mütləq dinclik» kimi izah oluna bilər. İslamın ən humanist və ən demokratik din kimi fenomenlər yaratmaq qüdrətindən bəhs edən akademik Fuad Qasımzadə «İki fenomen və islam («Dədə Qorqud»da və Füzulidə islam ənənələri)» əsərində bu fenomenlərdən ikisinə – «Dədə Qorqud» eposuna və Füzuli dünyagörüşünə islamın təsirini araşdırmış, hər iki fenomenin Qurani-Kərim dəyərləri və islam ənənələri fonunda təşəkkül tapdığını əsaslandırmışdır. İslam siyasi fenomenlər də yaratmağa qabildir. Lakin bu başqa, geniş mövzudur.

İndinin müharibələrinə dini rəng vermək, müqəddəs dinləri insanların, yaxud avantürist siyasətçilərin nəfsinə oyuncaq etmək yolverilməzdir. Yəhudilik və xristianlıq dinlərində olduğu kimi, islam dininə itaət edən insanların da öz dini ayinləri və müqəddəs hesab etdikləri yerlər, məkanlar var. Dünyəvi çəkişmələri din müstəvisinə gətirmək, insanların əqidəsi ilə oynamaq heç kimə şərəf gətirmir.

İslam dini insanlara şərəfli bir həyat yaşamağı tövsiyə edir. Dinin əmr etdiyi savaş – müdafiə, zalımdan və zülmdən qurtarma, ədalət və insanın haqqı uğrunda savaşdır: «Zülmə məruz qaldıqlarına görə savaşanlara – izn verilmişdir. Allah onlara kömək etməyə, əlbəttə qadirdir!» (Quran, 22:39) Bununla belə əlavə olunur ki, «Əgər onlar sülhə meyl etsələr, sən də sülhə meyl et və Allaha bel bağla. Həqiqətən Allah eşidən və biləndir» (Quran, 8:61).

Heydər Əliyev vətən ilə yanaşı hər bir vətəndaş, dövlət ilə yanaşı hər bir əsgər həyatı üçün narahat olan prezident idi. O, bilirdi ki, Allah-təala kainatı, maddi nemətləri insanlar üçün yaradıb. İnsan həyatı hər şeydən üstündür. Odur ki, o, müvəqqəti olaraq «ölüm yolu»na səbr edib, «olum yolu»nu – sülh, iqtisadi tərəqqi, maddi yüksəliş, rifah, siyasi nüfuz yolunu, başqa sözlə iqtisadi və mədəni cihad yolunu tutmuşdu. Heydər Əliyev çox sevdiyi Azərbaycan şairi və mütəfəkkiri Hüseyn Cavidin (1882-1941) «Peyğəmbər» əsərindəki ideyaya üstünlük vermişdi: «Kəssə hər kim tökülən qan izini, qurtaran dahi odur, yer üzünü» (2, 246).

Hüseyn Cavid dünyanın xilasını, bəşərin rifahını dövlət başçılarının sülh siyasətində görürdü. Həqiqətən, silaha, zorakılığa əl atılması, insanın acizliyi, çarəsizliyi, hətta qeyri-insani xislətidir.

Ağlına və fərasətinə inamı olanlar isə daha mütərəqqi üsul tapa bilirlər.

Heydər Əliyev ömründə heç vaxt həyatından qorxmamış, həmişə, hər yerdə cəsarətlə hərəkət etmişdir (2, 29). O, əməlisaleh olmuşdur və inanmışdır ki, Allah onu saxlayacaq. O, deyirdi: «Əgər namərd gülləsi məni məhv edə bilərsə, mən də Azərbaycan xalqının şəhidlərindən biri olacağam» (2, 30).

Azərbaycan xalqı, hətta düşmənlər də əmin ola bilərdi ki, Heydər Əliyevin komandanlığı altında biz qısa müddətdə torpaqlarımızı geri almaq iqtidarındaydıq. Lakin Heydər Əliyev dünya həvəsləri, şan-şöhrət, var-dövlət naminə insanları qırğına verən avantürist dövlət başçılarından fərqli idi.

Əfqanıstan, İraq və başqa ərazilərdəki faciələr dünya amirliyi, var-dövlət hərisliyinin acı nəticələri deyilmi? Heç bir prezident nakam insan həyatını qaytara, ürəyi dağlı analara təsəlli ola bilməz. Müharibənin ağrı-acılarını yaşayan insanlar bunu yaxşı dərk edirlər. Heydər Əliyev dövlət başçısı olmaqla bərabər, Allahın xəlq etdiyinə qıymaq iddiasından uzaq, insanların yaşamaq haqqına hörmətlə yanaşan bir Allah bəndəsi idi. Onun niyyəti ayrıca «olum», ya ölüm problemi deyildi, geniş mənasında Allaha ibadət idi.

Məlumdur ki, ibadət yalnız müəyyən ayinlərlə məhdudlaşmayan çox geniş anlayışdır. İbadət iman və cihaddan ibarətdir. Cihadın müxtəlif üsulları arasında üçü xüsusi rol oynayır: iqtisadi, mədəni və silahlı cihad. Beləliklə, islamın insan qarşısında qoyduğu əsas məsələ ibadətdir. Bəzən olum, bəzən də ölüm ibadət ola bilər. İstənilən halda bu – hər kəsin öz haqqıdır, başqasının haqqına təcavüz deyil.

Dinin ihyası – ibadətdir. Azərbaycan alimi Siracəddin Urməviyə görə, şəxsin ibadəti onun özündə məhdudlaşan mənfəətdir. Lakin ədalət elə bir ibadətdir ki, onun mənfəəti ümumidir, cəmiyyətin nizamı ondan asılıdır. O, haqqın naibliyi və xəlifəliyidir, həlak və məhv olmaqdan xalqın qorunmasının səbəbidir... Filosofun fikrincə, dövlət başçısının ömrü onun ədaləti ilə ölçülür. Ölkədə maddi nemətlər bolluğu, quruculuq işləri, ümumiyyətlə iqtisadi və mədəni tərəqqinin yalnız ədalətlə mümkün olduğunu vurğulayan Urməvi «Yer-göy və o ikisi arasında nə varsa hamısının xilqətinin ədalət üzərində qurulmasını» xatırladır (5, 226-227). Azərbaycanın məşhur «Dədə-Qorqud» eposunda isə deyilir: «Vətəni qorumursansa, əkib-becərməyinə, əkib-becərmirsənsə, qorumağına dəyməz».

Heydər Əliyev, istər sosialist quruluşunun «pərdəli» prinsiplərinin nüvəsini, istərsə də Azərbaycan mədəni irsinə «hopmuş» gizli mənalı fəlsəfi və dini hikmətləri iti və kəskin zəkası ilə dərk edir, böyük siyasəti və qüdrətli səriştəsi ilə həyata keçirirdi. Onun uzaqgörən siyasətinin formalaşmasında, tanınmış dövlət xadimi kimi yetişməsində və Yeni Azərbaycan dövlətini qoruyub inkişaf etdirməsində dini dəyərlərin rolu şəksizdir.

İslamın gücü ondadır ki, bu din insana həyatı dəyişdirmək üçün real və əməli yollar təklif edir. Bu yol adi adamlara da anlaşıqlı və aydındır. Quranda deyilir: «Allah lütfünə sığınanları onunla (Quranla) əmin-amanlıq yollarına yönəldər, onları öz izni ilə zülmətdən nura çıxarar və düz yola istiqamətləndirər!» (Quran, 5:16).

Qurani-Kərimdə deyilir: «Onlar Allahın nurunu (İslam dinini) öz ağızları (öz iftiraları, şər sözləri) ilə söndürmək istəyirlər. Allah isə –

kafirlərin xoşuna gəlməsə də – öz nurunu (dinini) tamamlayacaqdır» (Quran, 61:8). Bədxahların gözləri açılsaydı, görərdilər ki, hər yıxılan qurum, məhv edilən cism əvəzində minlərlə iman abidəsi ucalır. Mənəvi abidəni – insanların imanını yıxmaq, məhv etmək isə mümkün deyil. «Məgər Allah öz bəndəsinə kifayət deyilmi?..» (Quran, 39:36). «Onlara etdikləri pis əməllərin cəzası görünəcək və istehza etdikləri – onları saracaqdır!» (Quran, 39:70).

Qurani-Kərim insanlara müqəddəs yerlərə tapınmağı deyil, imana gəlməyi - «Namazı qıldıqdan sonra, ayaq üstə olanda da, oturanda da, uzananda da Allahı zikr etməyi» - buyurur (Quran, 4:103). İman bütövləşdikcə və qüvvətləndikcə batilin zəifləyəcəyi, labüd surətdə yox olacağı təlqin olunur. Müsəlmanlar Quranın Səf surəsində buyrulduğu kimi, iman gətirənlərdən və səf-səf (birlikdə) duranlardan olsalar, qəzəb və şəhvət hisslərindən əleyhdarlarının istifadə edib onları fitnəyə salmalarına yol verməsələr, inşaallah ki, əmin-amanlıq bərqərar olar.

Qurani-Kərimdə Muhamməd (s.s.)-in timsalında müsəlmanların örtüyə bürünməsi, yəni qorunması təqdir olunur. Deyilənə görə, «bilik – qorxudur, bilən isə – Allahdan qorxandır». Dünyanın müxtəlif ərazilərində fəsadlar törədənlər – qorxmurlar, deməli, bilmirlər. Çünki bilən asanlaşdırır, yaradır, dağıtmır. Dağıtmağına heç dəyməz də. Onsuz da fani olan hər şey əvvəl-axır məhv olur. İstilaçılıq, təcavüzkarlıq, qəsbkarlıq bütün zamanlarda olub. Bu xislət dinə aid edilə bilməz. Dində insanların ən ideal, mütərəqqi cəhətləri toplanıb.

Məlumdur ki, dünyada binaların damında bağlar salan, gözəlliklər yaradan ölkələr var. Lakin onlar qonşularının torpaqlarına göz dikmirlər. Sadəcə özlərinə məxsus torpaqlardan səmərəli istifadə edir, Allahın nemətlərindən əmin-amanlıqla yararlanırlar. Təəssüf ki, insan heç də həmişə dinin tələblərinə cavab vermir. Bəzən hətta bilərəkdən əksini edir – iblis kimi. XIX əsr Azərbaycan ictimai fikrinin görkəmli nümayəndəsi Hüseyn Cavid «İblis» dramında yazmışdır:

İblis nədir?
- Cümlə xəyanətlərə bais...
Ya hər kəsə xain olan insan nədir?
- İblis (3, 104).

Gözəllikləri dağıdan, insan məskənlərini, təbiəti məhv edən işğalçı Ermənistan dövləti və onun havadarlarının iblisə uyduqlarını görməmək mümkün deyil. Allah insanları «iblisləşmə»dən qorusun.

Azərbaycanlıların da yolu bütün dünyaya məlumdur: sülh, bərabərlik və həmrəylik, qarşlıqlı anlaşma və yardımlaşma. İslama etiqad edən - tövhidi seçmiş, Allaha təslim olmuş, iman və itaəti qəbul etmiş, Qurana ilahi elm kimi əməl edən şəxslərin, Heydər Əliyev kimi öndərin, İlham Əliyev kimi davamçıların idarə etdiyi dövlətin seçimi başqa cür ola da bilməz.

## ƏDƏBİYYAT


1. Aslanova R.N. İslam və mədəniyyət. «Azərbaycan Universiteti», Bakı, 2002.
2. Heydər Əliyev. Dinimiz xalqımızın milli-mənəvi sərvətidir. «İrşad», Bakı, 1999.
3. Hüseyn Cavid. Əsərləri: beş cilddə. III c. «Lider» nəşriyyatı, Bakı, 2005.
4. Qasımzadə Fuad. İki fenomen və islam («Dədə Qorqud»da və Füzulidə

islam ənənələri). «Əbilov, Zeynalov və oğulları», Bakı, 1999.
5. Məmmədov Z.C. Azərbaycan fəlsəfəsi tarixi / «İrşad», Bakı, 1994.
6. Rüstəmov Y. Beynəlxalq münasibətlər sistemində ABŞ-ın rolu (Z.Bjezinski ilə qiyabi dialoq). «Elm» nəşriyyatı, Bakı, 2005.

## РОЛЬ РЕЛИГИОЗНЫХ ЦЕННОСТЕЙ В УКРЕПЛЕНИИ ГОСУДАРСТВЕННОСТИ

И.ЗАРГАНАЕВА

### РЕЗЮМЕ

В статье проводится сравнительный анализ культурных ценностей и существующей реальной действительности. Уделяется внимание мирному договору, подписанному между Азербайджаном и Арменией в мае 1994 году. При анализе деятельности выдающейся личности Гейдара Алиева особое внимание привлекает его преданность национально-культурным ценностям. Отражены уважительное отношение азербайджанцев к мировым ценностям, практические шаги государственных деятелей Гейдара Алиева и Илхама Алиева на пути к миру, равноправию, солидарности, взаимопониманию и взаимопомощи.

## ROLE OF RELIGIOUS VALUES IN STRENGTHENING STATEHOOD

I.ZARGANAYEVA

### SUMMARY

In the article the comparative analysis of cultural values and existing reality is made. An attention is paid to the peace treaty signed between Azerbaijan and Armenia in May, 1994. At the analysis of activity of the outstanding personality, Haydar Aliev a particular attention is given to his fidelity to national and cultural values. The valid attitude of Azerbaijani to world values, way to the peace equality, solidarity, mutual understanding and mutual aid are reflected.